# Azərbaycan dünya turizminin sevimli məkanına çevrilir

Yayın isti günlərində böyüklər də, kiçiklər də Xəzərətrafı bağlarda dincəlmək, bir-birindən səfalı bölgələrimizə gəzintiyə çıxmaq, təbiətin qoynunda olmaq, istirahət etmək istəyirlər. Dünyada mövcud olan 11 iqlim qurşağının 9-nun ölkəmizdə olması nəinki yaz-yay, hətta payız-qış istirahətinin də təşkilinə imkan yaradır. Zəngin tarixi, mədəni irsimiz son illər dünyanın hər yerindən qonaqları ölkəmizə cəlb edir. Min bir dərdin dərmanı mineral su qaynaqları, dünyada yeganə müalicə nefti olan Naftalan, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin: işgüzar, idman, müalicəvi, tanışlıq, ekoloji ovçuluq, ekzotik, çimərlik və hətta qastronomik turizmin inkişafı üçün geniş imkanlar yaradıb. İyulun 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu barədə ətraflı danışan ölkə başçısı demişdir: "Son illər ərzində Azərbaycanın dünyada tanıdılması istiqamətində çox böyük işlər görülüb. Azərbaycanda dünyanın diqqətini cəlb edən beynəlxalq tədbirlər keçirilir. Misal üçün, bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir. Dünya miqyaslı tədbirdir. Bir neçə il bundan əvvəl "Eurovision", keçən il Avropa Oyunları böyük marağa səbəb olmuşdur. Yəni Azərbaycanı artıq tanıyırlar. Əlbəttə ki, ölkəmizin tanıdılmasında "Formula-1" yarışının xüsusi yeri var. Çünki bu yarışın auditoriyası 500 milyon insandır. "Formula-1" yarışı futbol üzrə dünya çempionatı və yay olimpiya oyunlarının səviyyəsində olan tədbirdir, onlardan geri qalmır. Əgər dünya çempionatı və olimpiya oyunları bir şəhərdə bir dəfə keçirilirsə, yaxud da ki, indi bəlkə də əlli ildə iki dəfə keçirilirsə, "Formula-1" yarışı Azərbaycanda ən azı bundan sonra dörd il keçiriləcəkdir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bu, şəhər yarışıdır və Bakının gözəlliyi 500 milyon insan üçün artıq təqdim olunub".

Ölkə başçısı nitqində onu da xüsusi vurğulamışdır ki, ölkəmizi dünyada tanıtdırmaq üçün çox ciddi tədbirlər görülür və təbliğat-təşviqat işləri həyata keçirilir. Vizalarla bağlı problemlər aradan götürülüb. "ASAN viza" xidməti yaradılıb. Dünyanın istənilən ölkəsində (Ermənistan istisna olmaqla), şəhərində yaşayan şəxs üç gün ərzində Bakıya heç bir maneəsiz, problemsiz viza alıb gələ bilər.

Turizmin inkişafına dövlət qayğısının nəticəsidir ki, respublikamıza gələn turistlərin və qonaqların sayı çoxalır. Fransa Senatının Fransa-Azərbaycan dostluq qrupu (sədri Andre Rişard) ilə respublika Mədəniyyət və Turizm Nazirliyində keçirilən görüşdə Azərbaycan ilə Fransa arasında mədəniyyət və turizm sahələrində əməkdaşlığın vəziyyəti və gələcək perspektivləri müzakirə edilib. Bildirilib ki, iki ölkə arasında turizm sahəsində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Qarşılıqlı münasibətlərin inkişafında Azərbaycanın birinci xanımı, Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti, həyata keçirilən layihələr olduqca mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda ekoloji turların təşkili çox geniş yayılmışdır, bunlara təbii qoruqlara gedilməsi, trekkinq və alpinist marşrutları daxildir. Günorta çağı qum çimərlikləri, dənizdə çimmək, Xəzəryanı istirahət mərkəzlərində olmaq çox əlverişlidir. Bir yanı Xəzər dənizi, bir yanı başı buludlara dəyən Talış dağlarının qoynunda, Lənkəranda turizm potensialını genişləndirmək, bölgəyə istirahət üçün daha çox turist gəlməsinə maraq yaratmaq üçün Lənkəran Turizm İnformasiya Mərkəzinin təşkilatçılığı ilə bu günlərdə tədbir keçirilib. Tədbir çərçivəsində Lənkəranın turizm potensialını əks etdirən fotoların sərgisi təşkil olunub, bu bölgənin turizm potensialı ilə bağlı geniş məlumatlar verilib.

Tədbirin bədii hissəsində yerli sənətkarların ifasında musiqi ifa olunub, turistlər üçün viktorina təşkil edilib. Tədbir iştirakçılarına Turizm İnformasiya Mərkəzi tərəfindən hazırlanmış Lənkəranın turizm potensialını əks etdirən bukletlər və flayerlər paylanılıb. İstər xarici ölkə vətəndaşlarının Azərbaycana istirahətə gəlişi, istərsə də ölkəmizin vətəndaşlarına göstərilən yüksək xidmət işindən çoxlu nümunə gətirmək olar. Çünki Azərbaycanda turizm sahəsinə dövlət qayğısı günü-gündən artır və tezliklə iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilməkdədir. Hazırda paytaxt Bakıda və digər turist zonalarında çoxlu sayda yüksək xidmət səviyyəsinə malik mehmanxanalar fəaliyyətdədir. Onların sayı 500-ü ötmüşdür.

Azərbaycanın ən məşhur brend şəbəkəli mehmanxanalarından olan "Four Seasons Hotel Baku", "Hyatt Regency", "JW Marriott Absheron Baku Hotel", "Jumeirah Bilgah Beach Hotel", "Grand Hotel Europe", "Hilton Baku", "Kempinski Hotel Badamdar" və digərləri dünyanın ən sayılıb-seçilən hotelləri ilə müqayisədə diqqətçəkəndir.

Azərbaycanın regionlarında da mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri fəaliyyət göstərir. Bunlara misal olaraq Qafqaz mehmanxanalar şəbəkəsini, Qəbələ şəhərindəki "Gabaland" attraksionlar parkını, Qusar rayonundakı möhtəşəm "Şahdağ" Qış-Yay Turizm Kompleksini, həm idmanla məşğul olmaq, həm də turistləri qəbul etmək üçün müvafiq infrastruktura malik 15-dən çox olimpiya idman kompleksini və digərlərini göstərmək olar.

Bütün bunlar turizmin Azərbaycanda dövlət siyasətinin üstün istiqamətlərindən birinə çevrildiyinə və ölkənin iqtisadi inkişafına böyük perspektivlər açdığına dəlalət edir. Təsadüfi deyil ki, bu məsələyə kompleks şəkildə toxunan ölkə başçısı cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir ki, əsas məsələ turizm sənayesini yaratmaqdır - həm daxili turistləri, həm də xarici qonaqları qəbul etmək üçün. Bizim gözəl iqlimimiz, yay aylarında Xəzər sahili, qış aylarında dağlar, xizək kurortları var. Bizim çoxlu tarixi abidələrimiz var. Nəinki Bakıda, bütün bölgələrdə müasir infrastruktur, hotellər, yollar var. Azərbaycan dünya turizminin sevimli məkanına çevrildiyindən bu istiqamətdə görüləsi işlər hələ çoxdur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***